Azərbaycan Respublikası
Dövlət Turizm Agentliyinin
04.12.24 tarixli 3-46/3-1-676/2024
nömrəli əmri ilə təsdiq edilmişdir.

# Cəbrayıl, Qubadlı, Zəngilan rayonları istiqamətində tur xidmətinin təşkili ilə əlaqədar turoperatorlar ilə əməkdaşlıq edilməsi qaydası

## 1. Ümumi müddəalar

1.1. Cəbrayıl, Qubadlı, Zəngilan rayonları istiqamətində tur xidmətinin təşkili ilə əlaqədar turoperatorlar ilə Dövlət Turizm Agentliyi (bundan sonra - Agentlik) ilə əməkdaşlıq münasibətlərini tənzimləyir.

1.2. Bu Qaydanın əsas məqsədi işğaldan azad olunmuş ərazilərdə turizm sahəsi üzrə iqtisadi aktivliyə təkan verilməsi, yerli vətəndaşların mədəniyyət paytaxtına turist məqsədilə təhlükəsiz səfərlərinin əlçatan olmasının təmin edilməsi və müvafiq marşrut üzrə turist səfərlərinin təşkil edilməsinə investisiya qoymaq niyyətində olan turoperatorların fəaliyyətinə dəstək göstərilməsidir.

## 2. Əməkdaşlıq üçün müraciətlərin qəbulu

2.1. Mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, turoperator fəaliyyəti göstərən hüquqi şəxslər əməkdaşlıq üçün müraciət edə bilərlər.

2.2. Aşağıdakı tələblərə uyğun turoperatorlar ilə əməkdaşlıq edilməsinə dair razılıq verilir:

2.2.1. Turizm reyestrində gəlmə və ya daxili turizm növü Turoperator və ya Turoperator-turagent növü üzrə qeydiyyatdan keçmək,

2.2.2. ən azı 5 il ərzində fəaliyyət göstərməsi və ya işğaldan azad olunmuş ərazilərdə tur xidmətinin təşkili üzrə ən azı 6 ay fəaliyyət təcrübəsinin olması,

2.2.3. ofisə malik olması;

2.2.4. Sərnişin daşıma xidmətinin təmin edilməsi ilə əlaqədar nəqliyyat şirkəti ilə müqavilənin bağlanmasına dair ikitərəfli ilkin razılıq və nəqliyyat vasitələrinin (buraxılış ili 2012-ci ildən aşağı olmayaraq) mülkiyyət hüququna dair qeydiyyat sənədi təqdim etmək;

2.3. Müsabiqədə iştirak etmək istəyən turoperatorlar bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilən formaya uyğun olaraq tərtib edilmiş müraciət ərizəsini Agentliyin e-poçt ünvanına göndərilməsini təmin edir.

2.4. Agentliyə daxil olan müraciət əsasında turoperatorun ixtisas göstəricilərinin və təqdim etdiyi sənədlərin bu Qaydanın 2.2.-ci bəndinə uyğunluğu 3 iş günü ərzində yoxlanılır və Əməkdaşlığa razılıq verilib verilməməsinə dair elektron qaydada bildiriş göndərilir.

## 3. Tur xidmətinin təşkili əlaqədar turoperator ilə əməkdaşlıq

3.1. Agentlik razılaşdırılmış turlar üzrə turist səfərlərinin təşkilində əməkdaşlıq edilməsi haqqında müqavilə bağlayır

3.2. Müsabiqənin qalibi olan turoperator turizm xidmətlərinin göstərilməsi zamanı qüsurlara yol verdikdə yaxud digər müqavilə şərtlərini pozduqda ən azı 15 gün əvvəl xəbərdarlıq edilməklə, Agentlik həmin müqaviləni birtərəfli qaydada vaxtından əvvəl ləğv etmək hüququna malikdir.

3.3. Müsabiqənin qalibi Agentliyin razılığı ilə müqavilənin qüvvədə olduğu dövrdə müsabiqə təkliflərində nəzərdə tutulan səfər daxili məntəqə nöqtələrini, vaxt və tur müddətlərini (son məntəqə istisna olmaqla) dəyişdirə bilər.

3.4. Əməkdaşlıq çərçivəsində turoperatorun aşağıdakı öhdəlikləri vardır:

3.4.1. Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarına tur xidmətinin təşkili və bu Qaydaya uyğun olaraq əməkdaşlıq edilməsinə dair ən azı bir operatorun ayrılmasını təmin etmək;

3.4.2. Tur proqramlarını və bələdçi mətnlərini Agentlik ilə razılaşdırmadan tətbiq etməmək;

3.4.3. Turist səfərlərinin təşkili zamanı xidmətlərin qüsursuz və keyfiyyətli təqdim edilməsinə nəzarət etmək;

3.4.4. Səfərlərin təşkili ilə əlaqədar Agentliyə mövcud vəziyyəti və statistikanı əks etdirən həftəlik hesabatlar təqdim etmək;

3.4.5. Tələb olduqda, turistləri müşayiət edəcək bələdçilərin ilkin yardım sertifikatına malik olmasını təmin etmək;

3.4.6. Ərazidə kütlənin idarə edilməsi məqsədi ilə həftə ərzində xidmət göstəriləcək turist sayının aidiyyəti orqanlar ilə razılaşdırılmış həddinin keçməməsinə nəzarət etmək;

3.4.7. "Avtomobil nəqliyyatı" haqqında Azərbaycan Respublikasının Qanunun 27.3-cü maddəsinə uyğun olaraq, peşəkar və təcrübəli sürücü heyətini cəlb etmək

3.4.8. Tələb olduğu təqdirdə turistlərin sığortalanmasını təşkil etmək;

3.4.9. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununun 10.1-ci maddəsinə uyğun olaraq sertifikatlaşdırılmış bələdçilər tərəfindən bələdçi xidmətinin təqdim edilməsini təmin etmək;

3.4.10. Agentlik ilə razılaşdırılmış tur proqramı və bələdçi mətnlərindən kənar hərəkətlərə yol verilməsinə nəzarət etmək;

3.5. Agentlik Turoperatorla əməkdaşlıq çərçivəsində aşağıdakı hərəkətləri edir:

3.5.1. İşğaldan azad edilmiş ərazilərdə mövcud giriş-çıxış rejimi ilə əlaqədar turistlər üçün operativ icazələrinin alınması məqsədilə aidiyyəti orqanlar ilə əlaqələndirilməni təşkil etmək;

3.5.2. Təhlükəsizliyin təmin edilməsi məqsədi ilə tur cədvəlində dəyişikliyin edilməsinə dair turoperatoru vaxtaşırı məlumatlandırmaq;

3.5.3. Turoperatorun işçiləri, bələdçilər və sərnişin daşıma xidmətlərini həyata keçirilməsinə dair sürücülərə təhlükəsizlik tədbirləri üzrə təlimlər təşkil etmək;

3.5.4. Turoperatora turistlərə paylanması üçün tur zamanı davranış qaydalarına dair məlumat kitabçaları, broşurlar təqdim etmək;

3.5.5. Turoperatorun sürücülərinin təhlükəsizlik təlimlərindən keçirilməsini və onlara müvafiq məmulatların təqdim edilməsini təşkil etmək.

3.6. Səfərlərin keyfiyyətli təşkili və təhlükəsizliyin təmin edilməsi üçün turoperator və Agentlik arasında təşkil edilən səfərlər barədə məlumat mübadiləsi mütəmadi qaydada təmin edilir.

Cəbrayıl, Qubadlı, Zəngilan
rayonlarına tur xidmətinin təşkili
ilə əlaqədar turoperator ilə
əməkdaşlıq edilməsi Qaydası"na

1 nömrəli Əlavə

**Azərbaycan Respublikasının**
**Dövlət Turizm Agentliyinə**

Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarına tur xidmətinin təşkili ilə əlaqədar əməkdaşlıq üçün
müraciət ərizəsi

1. Turoperatora dair məlumatlar: ______________________________
1.1. Hüquqi adı: ______________________________
1.2. Brend adı: ______________________________
1.3. Ofisin yerləşdiyi ünvan: ______________________________
1.4. Turizm reyestrində qeydiyyat nömrəsi (unikal ID kodu): ______________
1.5. Ümumi fəaliyyət təcrübəsi: _____ ( il/ay)
1.6. İşğaldan azad olunmuş ərazilərdə tur xidmətinin təşkilinə dair fəaliyyət təcrübəsi: ___________ ( ay)

Əlavə olunan sənədləri təqdim edərək bildiririk ki, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarına tur xidmətinin təşkilinə dair turoperator ilə əməkdaşlıq edilməsi Qaydasında əks olunan bütün şərtlər ilə razıyıq və ,__________ (şirkətin adı) ilə əməkdaşlıq edilməsinə razılıq verməyinizi xahiş edirik:

1. Hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın nüsxəsi
2. VÖEN nüsxəsi
3. Fəaliyyət təcrübəsini təsdiq edən sənədlər ( müqavilələr və s.)
4. Bakı şəhərində ofisin icarəyə götürülməsinə dair müqavilə və ya mülkiyyəti təsdiq edən sənəd
5. Sərnişin daşıma xidmətinin təmin edilməsi ilə əlaqədar nəqliyyat şirkəti ilə müqavilənin bağlanmasına dair ikitərəfli ilkin razılıq və nəqliyyat vasitələrinin (buraxılış ili 2012-ci ildən aşağı olmayaraq) mülkiyyət hüququna dair qeydiyyat sənədi

________________________________ ________________
(səlahiyyətli şəxsin adı, soyadı, vəzifəsi) (imza, tarix)

M.Y.